**“İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 12 noyabr tarixli 672 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 1 sentyabr 2016-cı il
№ 338

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2016-cı il 1 sentyabr tarixli 338 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

**İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin**

**S İ Y A H I S I**

1. Publik hüquqi şəxslər.
2. İctimai birliklər və fondlar.
3. Dini qurumlar.
4. Kredit təşkilatları.
5. *Sığortaçılar və təkrarsığortaçılar*.[1]
6. İnvestisiya fondları *və bu fondların idarəçiləri*.[2]
7. Qeyri-dövlət (özəl) sosial fondlar.

*7-1. Qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər.*[3]

8. Qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər.
9. *Media* ilə məhsullarının istehsalını və (və ya) yayılmasını həyata keçirən hüquqi şəxslər.[4]
10. Telekommunikasiya xidməti göstərən müəssisələr.
11. Poçt müəssisələri.
12. Müntəzəm sərnişin və yük daşımalarını həyata keçirən nəqliyyat müəssisələri.
13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 20 iyun tarixli 108 nömrəli qərarı ilə təsdiq edilmiş “Kommersiya təşkilatlarının (kredit təşkilatlarından, sığorta şirkətlərindən, investisiya fondlarından *və bu fondların idarəçilərindən*, qeyri-dövlət (özəl) sosial fondlarından, *qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərdən,* qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslərdən başqa) ictimai əhəmiyyətli qurumlara aid edilməsi üçün meyar göstəriciləri”nə cavab verən hüquqi şəxslər.[5]

**Qeyd.** Bu Siyahıda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 7 fevral 2017-ci il tarixli **34** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 9 fevral 2017-ci il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 2, maddə 287)**
2. 24 fevral 2017-ci il tarixli **68** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 28 fevral 2017-ci il, № 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 2, maddə 321)**
3. 27 may 2022-ci il tarixli **212** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 574)**

4. 10 oktyabr 2023-cü il tarixli **361** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 11 oktyabr 2023-cü il, "Xalq" qəzeti, 13 oktyabr 2023-cü il, № 223)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 27 may 2022-ci il tarixli **212** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 574)** ilə "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nın 5-ci hissəsində "**Sığorta şirkətləri**" sözləri "**Sığortaçılar və təkrarsığortaçılar**" sözləri ilə əvəz edilmişdir.

[2] 7 fevral 2017-ci il tarixli **34** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 9 fevral 2017-ci il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 2, maddə 287)** ilə "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nın 6-cı hissəyə " **fondları**" sözündən sonra "**və bu fondların idarəçiləri**" sözləri əlavə edilmişdir.

[3] 24 fevral 2017-ci il tarixli **68** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 28 fevral 2017-ci il, № 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 2, maddə 321)** ilə "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"na yeni məzmunda 7-1-ci hissə əlavə edilmişdir.

[4] 10 oktyabr 2023-cü il tarixli **361** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 11 oktyabr 2023-cü il, "Xalq" qəzeti, 13 oktyabr 2023-cü il, № 223)** ilə "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nın 9-cu hissəsində "**Kütləvi informasiya vasitələri**" sözləri "**Media**" sözü ilə əvəz edilmişdir.

[5] 7 fevral 2017-ci il tarixli **34** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 9 fevral 2017-ci il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 2, maddə 287)** ilə "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nın 13-cü hissəyə **"investisiya fondlarından"** sözlərindən sonra "**və bu fondların idarəçilərindən"** sözləri əlavə edilmişdir.

24 fevral 2017-ci il tarixli **68** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 28 fevral 2017-ci il, № 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 2, maddə 321)** ilə "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nın 13-cü hissəyə "**qeyri-dövlət (özəl) sosial fondlarından**," sözlərindən sonra "**qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərdən**," sözləri əlavə edilmişdir.